# ÇİNGİZ ÖMRÜNÜN POETİK XRONİKASI

*(Əvvəli ötən saylarımızda)*

Məlahət Soltanqızı ona görə haqlıdı ki, Çingiz Fuadoğlu qəhrəmanlığını tərənnüm edir; ona görə yox ki, Çingiz azərbaycanlıdır.

Yox, M.Soltanqızı ona görə Çingizi tərənnüm edir ki, o, insanlığın qorunması yolunda mübarizdir. Erməni vandallarının Qarabağda törətdikləri vəhşiliklər başqa bir vaxtda Əfqanıstanda, Ukraynada, Afrikada da müxtəlif ünvanlarla və müxtəlif adlarla təzədən təzahür edir.

Zaman keçdikcə belə əsərlərin qiyməti daha aydın görünür. Ən başlıcası, şairin - müəllif Məlahət Soltanqızının ritorik sualları, düşüncələri diqqətimizi Çingiz Fuadoğlunu öz cazibəsinə alan həqiqətin nüvəsinə doğru çəkir: *"Mən duya bilmirəm bir həqiqəti İnsan inama bu cür nifrəti. Cəsədlər eybəcər günə salınmış, Qulaqlar kəsilmiş, göz çıxarılmış. Bu sayaq amansız əməlləriylə, Nə demək istəyir, qaniçən qatil? Dava nə davasıdır, mən anlaya bilmirəm, Doğma torpağımızda, evimizin içində, Qarlı qış gecəsində, Halalca yuvamızda Başımızın çəkdiyi nə? Nə ad vermək olar buna - İnsanlığın ölməsi".* Necədir əziz oxucu? Müəllif və real Qarabağ həqiqətləri dünyanın hansı bir sənətkarı qabağa durub bu sonsuz insan faciəsini yazmaqla Nobel mükafatı almaq istəyər. Yəqin ki, hələ belələrini biz uzun müddət görə bilməyəcəyik. Ancaq hər halda bir azərbaycanlı şairin, bir azərbaycanlı həkimin birinin tərənnümündə, birinin faciəli ölümündə bu həqiqətlərin əksini görə bilirik.

M.Soltanqızı söz-söz, misra-misra qəhrəmanın həyatına doğru irəliləyir. Sanki o özünü də qəhrəmanının hansı faciə ilə qarşılaşacağını bildiyindən, onun hansı gülləyə hədəf olacağını bildiyindən özünü də həmin gülləyə doğru aparır: *"Çingiz döyüşürdü mətanətiylə Çəkirdi gördüyü bu zillətləri Hələ bərkiməmişdi sinəsində ürəyi Kövrək baxışlarında sanki dolmuşdu bulud Ağlamaq istəyirdi, körpə bir uşaq kimi ürəyini boşaltmaq... Qanı bir, dini bir bu insanların Halına dözmürdü... Ölüm deyil bu Ölüm var, ölüm də var... Ölüm deyil, zülümdü bu..."*. Göründüyü kimi, müəllif artıq ölümün də nəfəsini hiss edir. Müəllif ağlamağın nə olduğunu, bir uşaq dünyasının qana qərq olmuş mənzərəsini də kifayət qədər aydınlığı ilə görür. Ancaq o qəhrəmanını tərk etmir. Onunla birgə irəliləyir. Onunla birgə əbədiyyətin ilk şərbətini dadmağa doğru irəliləyir.

Ancaq hələ ki, vaxt var, ancaq hələ ki, həqiqətləri demək imkanı var. Və demək onun qəhrəmanın da hələ bir çox həqiqətləri lentin yaddaşına köçürmək imkanı var. Bu yaddaşa köçürmək imkanını ən azı ona görə buraxmaq olmaz ki, gələcək nəsillər bu həqiqətlərlə axıracan tanış olsunlar, doğrunu, düzgünü bilsinlər.

Amma hələ ki, onun qəhrəmanı şaxtanın, sazağın içərisində obyektivini həyat həqiqətlərinə doğru tuşlayıb: ***"Şaxtanın soyuğu, kəsir insanı Amansız yağan qar səngimir bir az Şəhərdə bir ölüm qoxusu vardı. Çingiz yorulmuşdu, donmuşdu qanı Unuda bilmirdi bu olanları. Çox ölümlər görmüşdü, Çox döyüş səhnələrin lentlərə köçürmüşdü, Tarixlərə yazmışdı. Fəqət inanmırdı o gözlərinə Xocalıda olanlar, Bu zülümlər, bu qanlar Bu kütləvi qırğınlar, bu amansız vəhşilik Tarixdə görünməmiş".*** Bəli, bu hadisələrin heç biri tarixdə görünməmişdi .Amma tarixin Ç.Mustafayevi bu həqiqətləri görmüşdü. Və M.Soltanqızı da öz düşüncələri ilə Çingiz Mustafayevin gördüyü həqiqətləri görmüşdü. Görünür, M.Soltanqızının poemasını canlı olaraq üzə çıxaran motivlərdən biri də elə bu mənəvi düşüncə imkanlarıdır.

Məlahət Soltanqızı düşmənlərin çılpaq təbiətini, kimliklərini də öz əsərində kifayət qədər təqdim edə bilir. Onların Azərbaycan-türk etnosu ilə mənəvi bağlılığının öz niyyətlərinə uyğun saxtakarlıqla qurulduğun da kifayət qədər aydınlığı ilə göstərir. Hətta müəllif öz peomasında düşmənin məkrli dünya oyunları üçün oyuncaq olan təbiətlərini də ifşa edir və göstərir ki, dünyanın heç bir xalqı bu dərəcədə vəhşi və qəddar ola bilməz. *"Ermənilər - bizim qapı qonşumuz Əsrlərdi bizə düşmən kəsilib. Xəyallarla xülyalarla yaşayır, Gözlərini bizim torpağa dikib. Bu millətin çaşıb belə bil ağlı, Hardan uydururlar bu qədər nağılı? Mən duya bilmirəm bu həqiqəti İnsanda insana bu cür nifrəti. Bu millətin qanında yox Allah mərhəməti. Bir oyundu bu oyuna gəlmişik, Alan kimdi, satan kimdi, bilmədik. Qalib yoxdu bu torpaq bazarında. Torpaqları zəbt eləyib qoyublar dincə Siçanlar oturub xəzinə üstə. Zaman hər bir işi salır sahmana, Tarix özü dərs verəcək düşmana. Bu iş belə qalmaz, bitməli, Ermənilər yer üzündən itməli. Körpələrə qıyan kəsin, İnsanlara acımadan gözlərini oyan kəsin Yer üzündə yaşamağa haqqı varmı"*. Doğru sualdır və ritorik sualdır, Xocalı qırğınını yaradan hər hansı bir etnos hətta illər keçəndən sona belə onun özünü ağıllı bilən nəslindən bir kimsə ayılıb üzr istəmirsə, onların hansı mənəvi əxlaqın sahibi olduğunu düşünmək elə də çətin deyil.

Bir sözlə, zaman keçdikcə həyat həqiqətlərini yazan müəlliflərin əsərləri gələcək mübarizələr üçün yeni nəsillərdən ötrü mənəvi proqram olaraq öyrəniləcək.

Bu döyüşlərin, bu qanlı savaşın bir qəhrəmanı da heç şübhəsiz Çingiz Fuad oğludur. Onun təkcə kamerası deyil, həm də düşüncəsi silahdır. Doğrudur, o, hərbi formadadır. Amma güllə ilə döyüşmür. Heç əynindəki hərbi forma ilə vuruşmur. O, düşüncəsi ilə vuruşur, gözünün görə biləcəyi məqamları bir operator kimi kameranın yaddaşına çəkməklə vuruşur. Gəncliyinə baxmayaraq inanır ki, onun 80-90-100 yaşında belə, hətta gələcək əsirlərdə belə çəkdikləri, yaddaşa yazdıqları onun gənclik əsəri kimi nəzərlərlə oxunacaq. Məlahət Soltanqızı Çingiz Fuadoğlunun bu döyüşçü obrazını kifayət qədər qabarıq verə bilir: *"Əyninə geyinib zabit paltarı Çiyninə aşırmış ağır aparat. Dağların, daşların arasında o, Ömrünün ən ağır illərini yaşadı. Döyüş yolu asan deyil Ölümdü bu, qandı bu. hər an düşmən gülləsindən yaralanan candı bu. Ata kimi, qardaş kimi öyrəşdiyin, sevdiyin Ən igid oğulların Gözlərinin önündə, güllələrə tuş gəlib, Öldüyü meydandı bu. Nə dostlar itirmişdi gözlərinin önündə Döyüş qanlı savaşdı, Ölən kim, öldürən kim Sözlərlə ifadə etmək olmaz. Səsdən qulaq tutulur, Bu vəhşətin içindən Sanma kimsə qurtulur. Saatlarla atışma, saatlarla gurhagur, Səsdən qulaq tutulur. Ataş kəsilincə sozalır hamı Əsl dəhşət onda basır adamı".* Döyüş səhnələri, insanın ölüm-dirim savaşı, insanın son həyat işartıları uğrunda mübarizəsi, bu misralarda yəni Çingiz Fuadoğlunun düşdüyü durumda təbii əks-səda kimi üzə çıxır.

M.Soltanqızı Azərbaycan xalqının yaşadığı tarixi gerçəkliklərin təsvir sahibidir. Onun poemasında bəlkə də poetik mükəmməllik axtarmaq absurd görünərdi. O, son dərəcə hissiyatla öz qəhrəmanının həyat yolunu sözün həqiqi mənasında elə qəhrəmanının təbiətinə uyğun döyüşçü gücü ilə sözə gətirir. Hər sözündə, hər misrasında qəlb yanğısı, can duyğusu, ən başlıcası, insan səmimiyyəti nümayiş etdirir.

Bəlkə də şair üçün öz qəhrəmanına doğmalıqdan üstün bir missiya yoxdur. Çünki doğmalıqla qəhrəmanı cəmiyyətin əzizinə çevirmək olar.



Çingiz Fuadoğlu elə həyatdan da cəmiyyət üçün əziz idi.

Birinci Qarabağ müharibəsinin xarakteri, əhatə dairəsi, ümumiyyətlə, təbiəti bir çox cəhətdən qeyri-adi idi. Hərbi qüvvələrin pərakəndəliyi, bir çox hallarda səhra komandirlərinin ümumi idarəetməyə tabe olmaması, döyüşən qüvvələrin lazımi hərbi hazırlıqdan keçməməsi... hələ çox sadalamaq olar... Bu müharibəni dünya müharibələri təcrübəsindən xeyli fərqləndirirdi. Amma hər halda xalqın vətəni müdafiə etmək istəyi də qarşısı alınmaz idi.

Amerikanın azadlığı uğrunda aparılan müharibənin bədii və kino tarixinə nəzər salanda maraqlı məqamlarla rastlaşmaq olar; Əhalinin zadəgan təbəqəsi içərisində böyümüş olan gənclər yoxsulların müharibəyə birinci getməsini özləri üçün təhqir hesab edirdilər. Onlar belə bir fikirlə döyüşə can atırdılar ki, vətən birinci növbədə onlarındır.

Çox acı təəssüflə qeyd etməliyik ki, Tolstoyun *"Hərb və sülh"* romanında da yer alan zadəgan balalarının vətənpərvərlik hissləri müasir Azərbaycan burjuaziyasının (oxu: məmur sistemi) övladlarında hələ də hiss olunmur. Birinci Qarabağ müharibəsində olduğu kimi İkinci Qarabağ savaşında da (və daha çox İkinci Qarabağ savaşında) biz az-çox imkanı olanların heç birinin övladlarını ön cəbhədə görmədik. Yaralanan, şəhid olan, döyüşdən psixoloji travma ilə qayıdan əsgərlərin hamısı kasıb balalarıdır.

Ancaq istisnalar da var. Məhz belə bir istisna üçün bizə dayaq verən obraz Çingiz Fuadoğludur. Onun müharibəyə getməmək, hədəf altına düşməmək imkanı vardı. O, bu imkandan əksinə istifadə edərək özünü odun, alovun içərisinə atdı. Əlbəttə, bu sırada ruhlarına ehtiram əlaməti olaraq Salatın Əsgərovanın, Alı Mustafayevin, Fəxrəddin Şahbazovun da adlarını qeyd edə bilərik. Birinci Qarabağ müharibəsində şəhid olan yazarlar da vardı. Nizami Aydın, Fuad Qəriboğlu... əgər gülləyə hədəf olmasaydılar, indi Azərbaycanın tanınmış şairləri, ziyalıları, memarları idilər. Görünür, tarix müəyyən istisnalarla da yazılır. Mən bilirəm ki, Fuad Qəriboğlu Əsədov necə inadla orduya yazılıb döyüşə getmişdi. Ölümündən sonra onun gündəliklərini və şeirlərini atası Qərib Əsədovun tərtibində çap etmək mümkün oldu. Yeri gəlmişkən, oxucularımın diqqətinə də çatdırardım ki, şair-memar Fuad Qəriboğlu Əsədovun şəhidlik yolunu *"Arzulara dəyən güllə"* (2008) adlı monoqrafiya ilə əbədiləşdirməyə çalışmışam.

Şəhid olan qəhrəmanlarımız haqqında yazılanlar bizim təkcə mənəvi borcumuz deyil, elə həm də sənətkarlıq borcumuzdu. Yazıçılıq missiyamızdı.

Şübhəsiz, şair-tədqiqatçı Məlahət Soltanqızını da şəhid qəhrəman Çingiz Fuadoğlu həyat yolunu poetik xronika ilə əbədiləşdirmək istəyi onun şəhid qəhrəmana sonsuz ehtiramı ilə bağlıdır.

Müəllif öz qəhrəmanını həyat yolu boyunca izləyir. Onun ən ağır, çətin məqamlarda iradə göstərməsini, təkcə özünün operatorluq missiyasını yerinə yetirməsi ilə bitirməməsini, eyni zamanda döyüşən mənəvi dayaq olmaq istəyini, sonsuz vətənpərvərlik duyğularını tərənnüm etdiyi xarakterin portret çizgilərinə çevirir. Müəllif müharibənin dəhşətlərini, onun qəddar mahiyyətini, döyüşdə əsgərlərinin psixoloji vəziyyətini göstərən real səhnələrlə oxucu yaddaşına yazır: *"Döyüşdə dil susur, silah danışır. Bütün aləm bir-birinə qarışır. Ölən ölür, ölməyənlər bir ömür, Bu vəhşəti öz içində daşıyır. Hər döyüşdə neçə ana, övladını itirir, Hər döyüşdə neçə uşaq, atasını itirir. Hər döyüşdə neçə qadın öz ərini itirir, Bu itkilər hər biri, bir sağalmaz yaradı, Vaxtsız ölüm hər kəsi, zaman-zaman ağladır"*. Həqiqətən, müharibə təkcə əsgərin ölümü deyil, müharibə sağlam gənclərin əlil olması deyil, həm də bir əsgərlə bağlı olan neçə-neçə insanların - anaların, ataların, qardaşların, bacıların faciəli taleyidir və bütün bunları Məlahət Soltanqızı çox ağrılı misralarla yaddaşlara yazır.

Hər bir əsər həyat həqiqətinin bir parçası olmalıdır və yalnız bu zaman müəllif məqsədi də özünü bədii həqiqətdə təsdiq edə bilər.

Yəqin ki, hər bir əsgər vətəndə atılan güllə sədasının eşidildiyi andan özünü döyüşdə görür. Əlbəttə, söhbət vətən sevdalısı olan əsgərdən gedir. Amma bu o demək deyil ki, həmin əsgər həyatı haqqında düşünmür. Həyatının hansı sonluqla bitə biləcəyini ağlına gətirmir. Şübhəsiz, bunlar da var və Çingiz Fuadoğlu da bu real həyat düşüncələrini yaşayırdı.

Ali təhsilli ziyalı, zəkalı bir gənc kimi və həm də ixtisası üzrə müəyyən təcrübə qazanmış həkim kimi ölümün nə demək olduğunu da yaxşı bilirdi.

Məlahət Soltanqızı qəhrəman Çingizin həyati düşüncələrini də yazıya gətirir. Ancaq ağrı ilə, sonsuz kədərlə. Elə bil ki, müəllif öz qəhrəmanının yanında dayanır, onun gələcək haqqındakı düşüncələrini özü də yaşayır. Hər halda Çingiz Fuadoğlu ailəni də unutmamışdı. Onun bir zaman keçə biləcəyi ağır yoldan sonra kimin hansı iztirabları daşıyacağını da yaxşı bilirdi. Və elə yaxşı bildiyi üçün də ölüm onun üçün qorxunc deyildi.

***(Davamı var)***